# ABBASOV MEHDİ YUSİF OĞLU



Mehdi Yusif oğlu Abbasov 1960-cı il yanvar ayının 1-də Qərbi Azərbaycanın Amasiya rayonunun Yeniyol kəndində anadan olmuşdur. 1966-cı ildə Yeniyol kənd orta məktəbinə getmiş, 1976-cı ildə oranı bitirmişdir. 1977-ci ildə Mehdinin ailəsi erməni daşnaklarının təzyiqi altında öz doğma yurdlarından köçməyə məcbur olmuşdur. Mehdi valideynləri ilə birlikdə Qazaxıstan Respublikası Tülkübas rayonunun Kulan kəndinə gəlmişdir. 1980-ci ildə sənədlərini Çimkənd Pedaqoji İnstitutunun hazırlıq şöbəsinə verir. O, 1985-ci ildə ibtidai-hərbi hazırlıq və bədən tərbiyəsi müəllimi ixtisasına yiyələnərək, Tülkübas rayonunun Miçurin kəndindəki Qaqarin adına məktəbdə müəllim işləməyə başlayır. O, elə həmin ildə klassik güləş üzrə idman normasını yerinə yetirərək “SSRİ idman ustası” adını alır. Az keçmir ki, Mehdi peşəsini dəyişir. O, 1989-cu ilin noyabr ayında Qazaxıstan KP Tülkübas Rayon Komitəsinin qərarı ilə daxili işlər orqanlarında işləməyə göndərilir. O, Stavropolda təhsil alarkən, Yessentuki şəhərində təcrübə zamanı Azərbaycan Daxili İşlər nazirinin müavini Ramiz Məmmədovla tanış olmuşdu. Nazir müavini ona Azərbaycanda xidmət etməyi təklif etmişdi. Uzun yazışmalardan sonra Mehdi 1991-ci il iyun ayının 28-də Azərbaycan Respublikası DİN-nin sərəncamına göndərildi. Bir aydan sonra baş leytenant rütbəsində rota komandiri kimi DİN-nin XTMD-ndə xidmətə başladı. O, Ağdam, Goranboy, Füzuli rayonlarında keçirilən döyüş əməliyyatlarında fəal iştirak edərək, erməni silahlı birləşmələrinə sarsıdıcı zərbələr vurdu. 1991-ci il sentyabr ayında Goranboy rayonunda o, vertolyotla növbəti əməliyyatdan qayıdırdı. Ermənilər onları güclü atəşə tutdular. Pilot başqa çıxış yolu görmədiyi üçün vertolyotu düşmən əhatəsində yerə endirdi. Bu, son dərəcə təhlükəli idi. Mehdi çoxlu erməni quldurunu məhv edərək, dəstəsini təhlükəsiz yerə çatdırdı. “Mixaylo” ləqəbli Mehdi, döyüşlərdə göstərdiyi şücaətə görə 4 dəfə DİN-nin mükafatına layiq görülmüşdü. Onun son döyüşü 13 yanvar 1992-ci ildə oldu. Məlikcan postu ətrafında qızğın döyüşlər gedirdi. Mehdi həmişə olduğu kimi yenə də ön xəttdə vuruşurdu. Bu ölüm-dirim mübarizəsində snayper gülləsi onu başından ağır yaraladı. Döyüş dostu onu, çətinliklə də olsa, təhlükəli zonadan çıxara bildi. Lakin güllə öz işini görmüşdü. Həmin gün o, əbədi olaraq gözlərini yumdu. Subay idi. Azərbaycan Respublikası prezidentinin 6 iyun 1992-ci il tarixli 831 saylı fərmanı ilə baş leytenant Abbasov Mehdi Yusif oğluna ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adı verilmişdir. Bakının Şəhidlər xiyabanında dəfn edilmişdir. İsmayıllı rayonunun keçmiş Ruşan kəndi indi cəsur döyüşçünün şərəfinə Mehdikənd adlanır. İsmayıllı rayonunun mərkəzi küçələrindən birinə onun adı verilmişdir.